M. J. LERMONTOV

# ŞAIRIN ƟLYMYNƏ

Şair əldyryldy, şair vuruldu.
O namus aşiqi dyşərək şərə,
Sinəsində qurşun, intiqam odu
Qyrurlu başьnь endirdi jerə.
Dəzmədi şairin, dəzmədi qəlbi
Ufaq təhqirlərin inciklijinə
Ɵldy, zid gedərək əvvəlki kibi
Kybar aləminin hər bir rə'jinə.
Ɵldyryldy, artьq hədər əməkdır,
Bu tə'riflər xoru, bu hənkyrtylər.
Bəraət fikri də nəjə gərəkdir?
Artьq ez hekmyny vermişdir qədə
Onun etgyn, azad iste'dadьnь
Siz dəjilmidiniz acьqla gydən?
Siz dejilmidiniz gizli janqьnь
Bir zovq alardьnьz kəryklənəkdət
Qoj olsun sevinin, gylyn bir daha!
Dəzyiməz iztirab onu apardь.
Səndy cьraq kibi bəjyk bir dəha,
Ehtişam cələngi soldu sarardь.

* * *

Sojuqqanlılьqla qatil jamança
Vurdu zərbəsini. Qurtuluş joqdur.
Əlində əsməjir onun tapança,
Dujqusuz bir yrək myntəzəm vurur
O, nə qəribdir ki, bizə uzaqdan
—Uqursuz talein həkmy var kibi –
Bir az qapsьn dejə səadət nişan
Atьlmьş jyzlərçə qacqьnlar kibi
Ona jabancьjdь bizim bu topraq
Edib adətinə, dilinə nifrət;
O bizim şərəfə vermədi fyrsət
Əlini qaldьrьb bu qanlь caqda,
Kimə qьjdьqьnь bilmədi ancaq.

* * *

Şair əldyryldy, gemyldy artьq,
Tərənnym etdiji həman qьsqancьq,
Qurbanь; mehriban nəqməkar kibi,
O nəzərdən uzaq, bəstəkar kibi
Əzy də tərk edib getdi cihanь,
Amansьz bir əlin oldu qurbanь.
Şirin lətafətli, sakit havalь
Dostlar dynjasьndan dysyb aralь.
Dynjaja sьqmajan, azad ataşin.
Ehtirasla dolu o yrək necin
Kybar aləminə mejlini verdi,
O boqluq, o paxьl myhitə girdi?
O ki, insanlarь gənclik caqьndan
Jaqşь tanьjьrdь, jaqşь bilirdi.
Fitnələr cьqaran, hilələr quran,
Iftiracьlara necin əl verdi?
Necin o hər sezə ujdu boş jerə
Inandь jalancь nəvazişlərə?
Əvvəlki cələngi alьb başьndan,
Qojdular başьna gyjəmdən cələng.
Lakin saf alnьna batьrdь hər an
Gizli tikənlərlə ərylən cələng
Zəhərləndi onun axьr caqlarь,
Gylync umudlarьn minlərcə hijlə
Doquran, fitnəkar pьcьltьsijlə.
Hədər umudlarьn gizli daqlarь
Cəkilməz arlarь ucundan o da
Intiqam dejərək atьldь oda.
Fysunkar nəqmələr kəsildi gərcək,
Bir də o nəqmələr səslənməjəcək.
Nəqməkarьn jeri qəmlidir, dardьr
Dodaqlarьnda da bir damqa vardь

* * *

Siz ej həjatьnda fəhşə dadanmьş.
Məşhur rəzalətlə şəhrət qazanmьş
Xain atalardan nişan xələflər!
Talein qurduqu əjlənçələrlə
Incik nəsilləri, işkəncələrlə
Qul kibi tapdajьb aşan xələflər.
Ej taxt ətrafьnda yşyşən jьqьn
Şərəfin, dəhanьn və azadlьqьn
Qəddar cəlladlarь, enin, enin siz!
Qanun arqasьnda pərdələnin siz!
Sussun qarşьnьzda qanun, ədalət
Sussun qarşьnьzda bu qara dəhşət
Fəqət ej rəngbərəng əxlaqsьzlьqьn
Qarşьsьnda gedən şərəfsiz jьqьn,
Bilin ki, tanrьnьn məhkəməsi var
O dəhşətli hakim sizi qarşьlar.
Altun cingiltisi uzaqdьr ondan,
O hər fikri, işi əvvəldən bilir.
Japdьqьnьz işə sizin o zaman
Nifrət jaqdьrmanьz hədər bir işdir
O sizə bir kəmək etməjəcəkdir
Şairin gynahsьz qanьnь hej siz,
Qara qanьnьzla təmizləsəniz,
Nə qədər jusanьz, getməjəcəkdir.

**Cevirəni M. MYŞFIQ**